Belə ki, kitab cəmiyyətin bütün mənəvi sərvətlərinin toplanıb saxlanmasında, onun nəsildən-nəslə çatdırılmasında, xüsusilə də böyüməkdə olan gənc nəslin tərbiyəsində, onların dünyagörüşünün artmasında, nitq mədəniyyətinin inkişafında böyük rol oynayır. Hər dəfə mən kitablar barədə düşünəndə bu sirli aləmin açarı olan «əlifba» və onu mənə öyrədən ilk müəllimlərim gözümün önündə canlanır. Hər bir şəxs kitablar aləminin sehirli dünyasına məhz «əlifba» qapısından daxil olmuşdur. Belə ki, insanlar dünyada ilk əlifbaların kəşfindən başlayaraq qələmin yaratdığı möcüzələrdən oxu vasitəsilə bəhrələniblər.




*Kitab-dünya mədəniyyət xəzinəsinin incilərindəndir. Cəmiyyətin inkişaflı gedişi, onun maddi və mədəni nailiyyətləri öz əksini kitablarda tapmışdır.*

Kitab insanların tərbiyəsində və onların şüurlarının formalaşmasında ən güclü vasitələrdən biridir. Son illərə kimi kitabxanaların fondunu kiril əlifbası ilə nəşr olunmuş ədəbiyyatlar təşkil edirdi ki, bu da indiki nəslin həmin ədəbiyyatlardan istifadəsinə maneə yaradır, oxucuların kitabxanadan əlaqəsini kəsməsinə səbəb olurdu. Kitabxana işçiləri yaxşı bilirdilər ki, kitabxanaya oxucu cəlb etmək heç də asan iş deyil. Mən (1997-2001-ci illərdə) rayon MKS-nin direktoru vəzifəsində işləmişəm və bu çətinlikləri görmüşəm. Kitabxananın əsas vəzifələrindən biri də oxucuların ədəbiyyata olan tələbatını ödəməkdir. Əgər kitabxana bu vəzifənin öhdəsindən gəlmirsə, son nəticədə öz oxucularını itirmiş olur. Lakin artıq bu çətinliklər arxada qalmışdır. Belə ki, Prezidentimizin 12 yanvar 2004-cü il tarixli, 56 saylı «Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında»kı Sərəncamı ilə bu problem öz həllini tapmışdır.

Prezidentin kitabxanalara verdiyi hədiyyə ədəbiyyatlar oxucular tərəfindən razılıqla qarşılanmışdır. Hazırda İmişli Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin fondunda 401915 nüsxə müxtəlif kitablar vardır ki, onların da 53288 nüsxəsi latın qrafikası ilə nəşr olunmuş ədəbiyyatlardır.

Prezidentin hədiyyə etdiyi kitabların 1120 nüsxəsi uşaqlar üçün nəşr olunmuş ədəbiyyatlardır ki, onları da uşaqlar həvəslə oxuyurlar.

Son illər kitabxananın fonduna daxil olan ədəbiyyatlar səliqəli nəşrinə, bədii tərtibatına, şəkil və illüstrasiyaların gözəlliyinə görə fərqlənir. Onların kəmiyyət göstəriciləri ilə bərabər keyfiyyət göstəricilərinə də xüsusi fikir verilir. Artıq Azərbaycan dilində latın qrafikası ilə nəşr olunan «Dədə Qorqud», «Nizami», «Füzuli», «Nəsimi», «M.Ə.Sabir», «C.Məmmədquluzadə», «S.Vurğun», «B.Vahabzadə» kttablarını, eləcə də dünya klassiklərinin əsərlərini oxucular kitabxanalardan alıb oxuya bilirlər. Prezidentin hədiyyə etdiyi ədəbiyyatlar kitabxananın fonduna daxil olmaqda davam edir. Hörmətli Prezidentin bu günlərdə «Dünya ədəbiyyatının görkəmli nümayəndələrinin əsərlərinin Azərbaycan dilində nəşr edilməsi» barədə imzaladığı Sərəncama əsasən Azərbaycan və dünya ədəbiyyatı nümayəndələrinin əsərlərindən ibarət 150 cildlik kitabın nəfs tərtibatla nəşr edilməsi gələcəkdə kitabxanaların fondunun zənginləşməsinə səbəb olacaqdır. Bütün bunlara görə kitabxana işçiləri və oxucular ölkə Prezidenti hörmətli İlham Əliyevə təşəkkür və minnətdarlıqlarını bildirirlər.

***Kitabxananın fonduna daxil olan yeni ədəbiyyatların müxtəlif formada təbliğ olunmasına da ciddi fikir verilir. Belə ki, mərkəzi kitabxanada və kənd kitabxana filiallarında yeni alınmış kitablar, mövzu ilə bağlı kitab sərgiləri, biblioqrafik icmallar, oxucu konfransı və başqa formalarda kitabların təbliğatı aparılır. Son vaxtlar MKS-in fonduna daxil olmuş ədəbiyyatların açıq havada sərgisinin təşkil olunması istiqamətində hazırlıq işləri aparılır. Belə sərgilər bir başa ədəbiyyatlarla tanış və ətraflı məlumat almağa imkan verəcəkdir. Ona görə də kitabxana işçiləri bu sərgiyə ciddi hazırlaşır və ədəbiyyatlar haqqında ətraflı məlumatlar toplayırlar.***

**İsmayıl NURİYEV,**
**İmişli Rayon Mədəniyyət və Turizm Şöbəsinin inspektoru**